*Qeyri-rəsmi tərcümə*[i]

TURKPA
PARLIAMENTARY ASSEMBLY OF TURKIC-SPEAKING COUNTRIES

# 24 İYUN 2018-Cİ İLDƏ TÜRKİYƏ RESPUBLİKASINDA KEÇİRİLƏN PREZİDENT VƏ PARLAMENT SEÇKİLƏRİNƏ DAİR TÜRKDİLLİ ÖLKƏLƏRİN PARLAMENT ASSAMBLEYASININ BEYNƏLXALQ MÜŞAHİDƏÇİLƏR MİSSİYASININ

# BƏYANATI

TÜRKPA Beynəlxalq Müşahidəçilər Missiyası *(bundan sonra Missiya və ya Müşahidəçilər adlandırılır)* Türkiyə Respublikasının rəsmi orqanlarının dəvəti əsasında 24 iyun 2018-ci ildə Türkiyə Respublikasında keçirilən parlament və prezident seçkilərinin qısamüddətli monitorinqını həyata keçirmişdir. Missiyanın tərkibinə Azərbaycan, Qazaxıstan və Qırğızıstan parlamentlərinin, eləcə də TÜRKPA Katibliyinin nümayəndələri daxil olmuşdur.

Türkiyədə keçirilən prezident və parlament seçkiləri əsasən Konstitusiya və Seçkilər üzrə Təməl Müddəalar və Seçicilərin Qeydiyyatı haqqında Qanunu ilə tənzimlənir. Eləcə də, seçki prosesinə aid digər qanunvericilik bazasına Ali Seçki Qurumunun Təşkili və Vəzifələri haqqında Qanun, Prezident Seçkiləri haqqında Qanun, Radio və Televiziya Müəssisələrinin Təsis Edilməsi haqqında Qanun və Ali Seçki Qurumunun qərarları daxildir.

Ölkənin Konstitusiyası seçkilər və referendumların keçirilməsini məhkəmələrin nəzarəti ilə azad, bərabər, birbaşa və gizli seçki hüququnun prinsipləri əsasında təmin edir. Türkiyə demokratik seçkilərin keçirilməsi ilə bağlı əsas beynəlxalq və regional hüquq normalarına tərəfdaşdır.

Missiyanın programına Türkiyə Parlamentinin və siyasi partiyaların nümayəndələri, eləcə də Ali Seçki Qurumunun sədri ilə görüşlər daxil idi. Görüş ərzində müşahidəçilərə seçkilərə hazırlıqlarla bağlı həyata keçirilən tədbirlər haqqında ətraflı məlumat verilmişdir. Ali Seçki Qurumunun məlumatına əsasən təxminən 56,3

TURKPA International Secretariat

milyon ölkədaxili və 3 milyon ölkəxarici seçicilər 180 min seçki məntəqələrində səs vermək üçün qeydiyyatdan keçmişdir. Ölkə xaricində səsvermə 60 ölkədə təşkil edilmişdir və 7 iyundan 19 iyuna qədər davam etmişdir. Bundan əlavə, ölkə ərazisindən kənar olan seçicilər 34 gömrük məntəqəsində səsvermə imkanına malik olmuşdur.

Bununla yanaşı missiya Ədalət və İnkişaf Partiyası (AKP), Respublika Xalq Partiyası, Millətçi Hərəkat Partiyası (MHP) və Xalqların Demokratik Partiyasının (HDP) nümayəndələri ilə görüşlər keçirmişdir. Siyasi partiya rəsmiləri müşahidəçilərə seçki platformaları və öz partiyalarının siyasətinin əsas cəhətləri haqqında qısa məlumat vermişlər.

Ali Seçki Qurumu prezident seçkilərində iştirak etmək üçün 6 (altı) namizədi qeydiyyatdan keçirmişdir. Onlardan üç nəfərin namizədliyi siyasi partiyalar tərəfindən irəli sürülmüş, digər üç nəfər isə seçicilərin ən azı yüz min imza toplayaraq öz namizədliyini vermişdir. Parlament seçkilərinə səkkiz (8) siyasi partiya, və onlardan, qanunvericilikdə olan son dəyişikliklərə uyğun olaraq, beş partiya iki siyasi ittifaq şəklində qatılmışdır. Parlament seçkilərində siyasi partiyalarla yanaşı, müxtəlif dairələrdə 68 müstəqil namizəd iştirak etmişdir.

Parlament, 5 il müddətinə 87 seçki dairəsində proporsional sistemlə 10% səs həddini keçməklə seçilir. Prezident səslərin əksəriyyətinin səs çoxluğu ilə beş il müddətinə seçilir, prezidentliyə namizədlərdən heç birinin səs çoxluğu yığmadığı təqdirdə, iki həftə sonra ikinci tur baş verir və birinci turda ən çox səs toplayan iki namizəd iştirak edir.

Türkiyədə seçkilər Ali Seçki Qurumu, Vilayət Seçki Qurumları, Dairə (Rayon) Seçki Qurumları və Məntəqə Seçki Komitələrindən təşkil olunan dörd səviyyədə idarə olunur. Ölkə ərazisindən kənar səsvermə prosesi paytaxt Ankarada yaradılmış əlavə Dairə Seçki Qurumu tərəfindən idarə edilirdi. Missiya seçki təqviminin qəbulu, seçici qeydiyyatı və maddi-texniki təkmilləşdirmələr kimi texniki və prosessual aspektlər yaxşı təşkil olunduğundan seçki idarəçiliyinin bütün səviyyələrinin peşəkarlığını vurğulayır. Missiya 650 000 fiziki məhdudiyyətli vətəndaş və 2,5 milyon yaşlı əhali (75 yaş üzərində) üçün bütün zəruri şəraitin yaradıldığını xüsusən qeyd edir. Eyni zamanda, 2500-ə yaxın seçici daşınan seçki qutuları üçün müraciət etmişdir. Digər bir yenilik parlament seçkilərində səsvermənin cədvəlləşdirilməsini asanlaşdıran kompyuter proqramının tətbiqi olmuşdur.

TÜRKPA missiyası səsvermə prosesinin bütün mərhələlərini izləmək imkanı əldə etmişdir. Seçki günü məntəqələr 8:00-dan 17:00-dək açıq olmuşdur. Missiya üzvləri Ankaranın 12 dairəsində təxminən 40 seçki məntəqəsini ziyarət etmişdir. Müşahidəçilər səsverməni müşahidə etmiş, seçicilər, siyasi partiya nümayəndələri və

TÜRKPA International Secretariat

məntəqə rəsmiləri ilə söhbət etmişdir. Həmçinin TÜRKPA müşahidəçiləri 3 seçki məntəqəsində səslərin sayılmasında iştirak etmişdir.

Ali Seçki Qurumunun məlumatına əsasən seçici fəallığı təqribən 87,5 % təşkil etmişdir. Missiya seçicilərin yüksək fəallığını demokratiya adına vacib nailiyyət kimi qeyd etmişdir.

TÜRKPA müşahidəçiləri Türkiyənin uzunmüddətli demokratiya ənənələrinin olduğu və seçkilərin daim sərbəst, ədalətli və şəffaf şəkildə keçirildiyi fikrindədir. Missiya hər hansı mühüm pozuntu və hüquqi çərçivədən yayınma halları müşahidə etməmiş və seçki prosesi Türkiyənin milli qanunvericiliyi və beynəlxalq normalara uyğun idarə olunmuşdur.

Türkiyədə seçkilərdə beynəlxalq müşahidə üçün bütün hüquqi və maddi-texniki şərait təmin edilmişdir. Missiya müvafiq beynəlxalq qurumlar tərəfindən təsdiq olunmuş obyektivlik, ədalət, şəffaflıq və qərəzsizlik prinsiplərinə əməl etmişdir.

TÜRKPA Beynəlxalq Müşahidəçilər Missiyası Türkiyə Respublikasında prezident və parlament seçkilərinin Türkiyənin milli qanunvericiliyi və beynəlxalq demokratik standartlara uyğun şəkildə keçirildiyi qənaətinə gəlmişdir.

[i] *Bəyanatın əsli İngilis dilindəki mətn hesab edilir, eyni zamanda bəyanatın digər dillərdə olan mətni əslə uyğun olaraq təqdim edilə bilər*

TURKPA International Secretariat